*Əhməd HAQSEVƏR*

# Səni itirməkdən yaman qorxuram



Sevgi bulağımın mənsəbisən sən,
Məhəbbət dinimin məzhəbisən sən,
Hicran azarının məhzhəbisən sən,
Olar din-imanım talan, qorxuram,
Səni itirməkdən yaman qorxuram.

Vallah, gözəllikdə bir çiçəksən ki,
Sən elə şirinsən, çiyələksən ki.
Mənim nəzərimdə bir mələksən ki,-
Saflıq zirvəsində dayan, qorxuram,
Səni itirməkdən yaman qorxuram.

Düşmüşəm sevginin gur girdabına,
Yanıram, dözürəm hər əzabına,
Səbir də sığmayır hərdən qabına;
Bir gün tək qalaram, inan, qorxuram,
Səni itirməkdən yaman qorxuram.

Sevgini ömrümə qayə bilmişəm,
Eşqini üstümdə sayə bilmişəm,
Mən səni özümə dayə bilmişəm.
Qorxuram, qorxuram, aman, qorxuram.
Səni itirməkdən yaman qorxuram.

Ay gözəl, dərdimin pənahı sənsən,
Bu xoş əzabımın günahı sənsən,
Təşnə ürəyimin sabahı sənsən.
Qorxuram, qorxuram, hər an qorxuram,
Səni itirməkdən yaman qorxuram.

# Get

Ürəyimdə yerin vardı,
Yerin vardı süfrəmin başında.
Dost kimi qalacaqdın hörmətimin,
məhəbbətimin yaddaşında
sədaqətdə korluğunu-
nankorluğunu bilməsəydim.
Bildim,
adını
xatirə arxivinə qonmuş
toz kimi sildim.
Əmanət qoyduğum inamı
güldürə bilmədin.
Öldürə bilmədin tamahını, nəfsini.
Yeri get,
eşitmək istəmirəm əfsunu-
sözünü-səsini.
Sədaqətinə inanırdım,
səni etibara açar sanırdım.
Demə, qıfıl imişsən
Tamah adlı açara.
Get, başına qıl çarə.
İtirdiyim dünyamalıdır,
Dünyada qalmalıdır.
Oturduğun budağı kəsən imişsən,
Ürək-ürək gəzən imişsən.
Get, gəz dünyanı veyil-veyil,
yurdsuz-yuvasız, səfil-səfil.
Ürəklərdəbinəqurmaqçətin,
qovulmaqasan.
Yenə ürək qalıbmı qovulmayasan?!
Get, ürəkdən qovulan avara kimi gəz,
get, məzara kimi gəz.

# Gərək aradan keçim

Vallah, bilmirəm necə
Ağı qaradan seçim.
Ağ qarışıb qaraya,
Ağı haradan seçim?

Bax, gözlərim yol çəkir,
Qara qarovul çəkir,
Yolda durub qol çəkir,
Necə oradan keçim?

Gedəcəyim yol uzaq,
Həm sol qara, həm də sağ.
Mən ölmüşdə üzü ağ
Gərək aradan keçim.

Azad Azərbaycan.- 2023- cü il.- 26 oktyabr.- S. 6. № 35.